# Şəhidlik ən ali rütbədir

*Əziziyəm amandır,*
*Dağlar başı dumandır.*
*Ölüm allah əmridir*
*Cavan ölmək yamandır.*

Dünyada hər şeyi planlaşdırmaq olur, ömürdən, taledən başqa. Ona görə də cavan ölən də olur, qoca ölən də. Məgər məsələ ölümdə, ömürdə, yaxud az yaşamaqdadırmı? Qara qarğa yüz əlli il yaşayır, bülbül isə bundan bəlkə də yüz dəfə az.

Ancaq nəğməsi dillərdən-dillərə düşür, ürəkləri yerindən oynadır, damarlarında qanı coşdurur, əbədiyaşar nəğmələr qoyub gedir.

Şübhəsiz ki, Namaz Muradov yaşasaydı əməksevər bir insan, qeyrətli bir vətəndaş olacaqdı. Bu onun qısa ömrü ərzində gördüyü işlərdən, davranışından, əməyə, zəhmətə bağlılığından, istiqanlılığından, insanlara münasibətindən aydın hiss edilirdi. O, böyük arzularla yaşayırdı. Əfsus ki, bu arzuların çoxunu açıb ata-anasına, dostlarına deməyə macal tapmadı. Namaz öz əli ilə yazdığı çox qısa, mənalı məktublarla göstərirdi ki, o irəliyə, sabaha can atır. Ancaq Namazın gələcək işləri yarımçıq qaldı. O gələcəklər Namazın yolunu çox gözləyəcək. O "gələcəyin" bir təsellisi olacaq ki, onun qoynunda heç vaxt dəyişməyən, qocalmayan, həmişə on doqquz yaşlı Namaz yaşayır, igid əsgər yaşayır. Cəsur insan yaşayır. Bunlar hamısı böyük təsəllidir.

Ancaq cümlələri ürək ağrısıyla, əlim titrəyə-titrəyə yazarkən qəlbimdə bir fəryad qopur: "Bəli, cavan ölmək yamandır. Kaş Namaz ölməyəydi, yaşayaydı. Gələcəyi öz gözləri ilə görəydi, onun enişli-yoxuşlu yollarında addımlayaydı. Oğul-qız atası olaydı. Axşam-səhər onların qayğısı ilə yaşayaydı. Bəli, bu bütöv ömür olardı. Yox, deyəsən, günah işlətdim. Belə çıxır ki, cavan ölən Namazın ömrü bütöv deyildir. Yox, Namazın ömrü əsl bütövlük, böyüklük rəmzidir, mənalı ömürdür. Ömrün bütövlüyü yaşla ölçülmür. Əməli ilə ölçülür, işlə ölçülür, məsləkin, əqidənin bütövlüyü ilə ölçülür. Bunlar isə həyatda sınanır. Mənə elə gəlir ki, od-alova düşənlər bir iş görəndə qəhrəman olmağı, orden-medal almağı ağıllarına belə gətirmirlər. Daxili qüvvə onları irəli aparmağa, darda qalanlara əl uzatmağa sövq edir. Namazın da taleyi belə oldu. Əlbəttə, əməlinin qəhrəmanlıqla nəticələndiyini görmək xoşbəxtlikdir. Əfsus ki, bu xoşbəxtliyi görmək, duymaq Namaza nəsib olmadı. Ancaq özü yoxsa da çox böyük bir təsəlli var, Namaz şəhid qəhrəmandır. Namaz hünəri, Namaz qeyrəti örnəkdir.

Onun 20 yaşı oktyabr ayının 14-də tamam olur. Azərbaycan kənd orta məktəbi onun adını daşıyır. Məktəbin divarında onun xatirə lövhəsi asılıb. Azərbaycan kənd kitabxanasında böyük bir foto-sərgi təşkil edilmişdir. Kitabxanaya gələn oxucular həmin foto-sərgiyə baxır və gül-çiçək dəstəsi qoyurlar. Bu sərgi gənclərimiz üçün hərbi-vətənpərvərlik nümunəsidir. Şəhidlər haqqında kitab sərgisi təşkil edilmişdir. Namaz Muradov adına Azərbaycan kənd orta məktəbində dərslər başlandı. Birinci dərs Namaz Muradovun cəsur əsgər olması barədə, digər şəhidlərin döyüş yolundan və müharibənin törətdiyi qanlı cinayətlər barədə söhbətlərə həsr edildi.

Sıravi əsgər Namaz Muradovun fəaliyyətinə aid kitabxanada foto-sərgi hazırlanmışdır. Bu günlərdə yüzlərlə adam Namazın valideynlərinə başsağlığı verir, onlara əsl vətənpərvər, mərd insan tərbiyə etdikləri üçün təşəkkür edirlər.

"Hamı öz işindədir, zaman öz gərdişində. Bir-birini öldürmək, məhv etmək üçün iki tərəf silahlanıb üz-üzə dayanıb. Bir tərəf vətənin halal torpaqlarının müdafiəsi üçün əlinə silah alıb. O biri tərəf isə özgə torpaqlarına göz dikən, cəllad xislətli, vəhşi təbiətli erməni millətçiləridir. Xaricdəki havadarlarına arxalanan muzdlu nökərlərdir. Qara keşişin ədalətsiz nəvə-nəticələri, qan tökməyə susayanlar silahlanıb. Düşmən nə bəşəriyyət qarşısında xəcalət çəkir, nə də insanlıq qarşısında.

Namaz Muradov cəsur Azərbaycan əsgəri olduğunu düşmənə göstərə bilmişdir. Hərbi tapşırığı yerinə yetirərkən snayper gülləsinə tuş gəlmişdir. O, Azərbaycanın torpaqlarının bütövlüyü uğrundakı mübarizədə həlak olmuşdur. Azərbaycan ordusunun cəsur əsgəri Namaz Muradov azadlıq amalı uğrunda canından keçən oğullardan biri idi, qəhrəman oğullardan biri idi.

Allah rəhmət eləsin, qəbri nurla dolsun.

**Ağaş Mirzəzadə,**
**Lerik rayonu, Azərbaycan kənd kitabxanasının müdiri, əmək veteranı.**